***Aləmşah bəyim yaxındakı eyvana çıxmışdı. Oğlunun Əbdi bəyin qızı ilə yaxın mehrindən necə sevindisə, az qala pillələri sürətlə düşüb onların yanına yüyürəcəkdi. Xəyalına özünün ilk gənclik çağları gəldi. Atası Uzun Həsənin onun Şeyx Heydərlə ilk görüşünü düşüncəsindən keçirərkən sərt baxışları elə bil ki, ona indi təzədən zillənmişdi.***

***...Aləmşah bəyim əvvəlcə atasını görmürdü. Qarşısındakı gəncin boyu qırmızı zolaqlı çalma ilə bir az da uca görünürdü. Gənc Şeyx də bir az dayısı Uzun Həsənə çəkdiyindən uzunboylu görkəmi ilə Aləmşah bəyimə lap əlçatmaz görünürdü. Hərçənd ki, Aləmşah bəyimin özünün də boyu Şeyx Heydərin boyundan aşağı deyildi. Şeyxin nəzərləri ahənrüba cazibəsi ilə bu gənc saray gözəlini özünə tərəf çəkirdi. Hökmdar qızı sanki hər şeyi unutmuşdu. Yadından çıxarmışdı ki, sarayın bütün gözəlləri onun bircə nəzəri ilə diz çökər, hər hansı bir məərəkədə görünəndə nəinki təkcə xanımlar elə sarayın adlı-sanlı igidbaşıları da onu görəndə üzlərini, gözlərini gizləməyə yer axtarırdılar. Amma indi necə oldu ki, Tanrının qənirsiz kişi gözəlliyi bəxş eləmiş cavan Şeyx nəzərlərini ondan çəkmirdi. Ən qəribəsi bu idi ki, Aləmşah bəyim özü istəmədən Şeyxə doğru irəliləyirdi. Elə bil ki, gözəgörünməz hansısa bir qüvvə onun ixtiyarını əlindən almışdı. Şeyxin gözlərindən atılan tor Aləmşah bəyimi tutub özünə tərəf çəkirdi. Düz Şeyxin qabağında dayandı. Şeyxin qolları yanına düşmüşdü. Sakit-sakit baxırdı, amma əlbəttə, bu sakit-sakit baxmağın özündə də bir heyranlıq, əsirlik vardı. Aləmşah bəyim bilmirdi ki, onun düşündüklərini elə Şeyx Heydər də xəyalından keçirir. Cəsarəti, hökmdarın hüzurundakı qətiyyəti ilə saray əhli arasında xüsusi nüfuz qazanmış Şeyx Heydər özü də bilmirdi ki, niyə bu gənc qızın qabağında belə məlul, müşkül dayanıb.***



***Hüseynbala MİRƏLƏMOV***

Aləmşah bəyim əlini uzadıb Şeyxin sağ əlini tutdu. Şeyx də sol qolunu Aləmşah bəyimin çiyninə uzatdı. İndi gözlər bir-birinə baxırdı. Bunlar ani bir məqam idi. Vaxt elə də çox keçməmişdi. Amma Aləmşah bəyimə də Şeyx Heydərə də elə gəlmişdi ki, onlar elə bütün günü dayanıb bir-birinə baxıblar. Və vaxtın necə keçdiyindən də xəbərsiziydilər.

Daha bundan gerisi yox idi. Şeyx Heydər bir anlığa olub-olacaqların hamısını xəyalından keçirdi. Dayısı Uzun Həsənin Ağqoyunlular səltənətinin böyük hökmdarının bu ünsiyyətə necə baxacağını da əlbəttə, düşünürdü. Amma onda bir inam var idi ki, dayısı Uzun Həsən bu münasibətə pis baxmaz. Qızın əlinin hərarəti Şeyxin əlindən keçib damarları ilə qoluna, ordan da bütün bədəninə yayılmışdı. Şeyx sanki od tutub yanırdı. Eyni ilə belə bir hissi Aləmşah bəyim də keçirirdi. O da sanki yanan bir oda düşmüşdü. Qəribə idi ki, heç birisi bu od-ocaqdan qaçmaq istəmirdilər. Bu od-ocağın onları daha artıq yandırmağını istəyirdilər. Şeyx, deyəsən, ayılan kimi oldu, əlini geri çəkdi. Aləmşah bəyim istədi ki, onun əlini buxarmasın. Hansı hissin təsiriylə ə canına qorxu gəldi. Ona elə gəldi ki, kimsə kənardan onlara baxır, bütün Uzun Həsən hökmdarlıq qüruruna güc gəldi. Onun atalıq duyğusu hökmdarlıq qüruru ilə üz-üzə gəlmiş, qarşı-qarşıya gəlmişdi. Sanki bu iki qüvvə, özü də yenilməz qüvvə çarpışırdı, döyüşürdü.

Deyəsən, atalıq hissi hökmdarlıq qüruruna üstün gəldi. Qızı ilə bacısı oğlunun belə ünsiyyətlə görüşünə mane olmaq istəmədi. Eyvandan geri çəkildi.

Aləmşah bəyim gözlərini süzdürüb, eyvana tərəf baxmağa işarə elədi. Şeyx Heydər indi hər şeyi anladı. Başını döndərib eyvana tərəf baxanda, Uzun Həsəni dönüb gedən gördü.

Əlbəttə, Şeyx Heydər hökmdar hüzurunda bir təbənin keçirə biləcəyi həyəcanları da yaşadı. Ancaq daha ox kamanından çıxmışdı. Bir də geri qayıdası deyildi. Uzun Həsən eyvandan çəkilib getdi, sanki onun vahiməsi də getdi. Ancaq yox, hər iki gəncin hissləri bu vahiməni canlarından tam ötürməmişdilər.

Birdən Şeyx Heydər od kimi irəli şığıdı. İki əli ilə qızın çiyinlərindən yapışdı, özünə tərəf çəkdi. Oda bükülmüş dodaqlar bir-birinə dəydi. Bir neçə an gənclər dünyanı unutdular. Özlərini göyün, bəlkə, neçənci qatında hiss etdilər. İndi onların qanadları vardı. Göy üzündəki buludlardan da yuxarı idilər. Özü də buludların üstüncə arın-arxayın uçurdular. Qəfil bir külək əsdi. Ağacların xışıltısı, yarpaqların titrəyişi gəncləri təzədən özlərinə qaytardı. Ayrılanda nə Aləmşah bəyim Şeyx Heydərə, nə də Şeyx Heydər Aləmşah bəyimə baxdı. Aləmşah bəyim qaça-qaça getdi. Şeyx Heydər isə asta addımlarla oradan uzaqlaşdı.

Bu hadisədən xeyli keçdi. Şeyx Heydər hərbi səfərə getdi. Aləmşah bəyimin gecəsi-gündüzü olmadı, bəzən bütün gecəni oyaq qalıb, səhəri diri gözlə açırdı. Sevgilisinin səfərdən nə vaxt qayıdacağını gözləyirdi. Adlı-sanlı igidlərin döyüşdə həlak olmaq xəbəri gəlir. Sonra da onların cəsədlərini Təbrizə gətirib hörmətlə dəfn edirdilər. Belə xəbərlərin hər biri Aləmşah bəyimin ürəyini üzürdü. Zaman keçdikcə, o hadisələrə öyrəşməyə başladı və onda belə bir inam yarandı ki, Şeyx Heydər Allahın zaminindədir. Onu Allah qoruyur, bir kimsənin gücü çatmaz Şeyx Heydəri döyüşdə yenməyə.

Əlbəttə, sevənlərin bir-birinin intizarını çəkməsi şirin bir əzabdı. Bu əzabı Aləmşah bəyim varlığında hələ çox daşıcayaqdı.

# ÇALDIRANA GEDƏN YOL

## *romandan səhifələr*

*(Əvvəli ötən saylarımızda)*

Yenə Aləmşah bəyim cəsarətli oldu:

- Mən istədim ki, Şeyxə salam verim. - Doğrudur, belə dedi, ancaq o saat anladı ki, əslində, Şeyxə yaxın gəlməkdə məqsədi ona salam vermək deyildi. Sadəcə, heç özünün də xəbəri olmadan onu Şeyxin nəzərləri çəkib gətirmişdi.

Şeyx Heydər də bir az özünü toparladı. Ancaq hiss elədi ki, dillənə bilmir. Dillənsəydi də dili topuq çalacaqdı. Əvvəlcə çiyinlərini çəkdi, bununla sanki Aləmşah bəyimə «ixtiyar sənindi» demək istəmişdi. Aləmşah bəyim Şeyxin bir az ağarmış sifətinə, bir az da heyrətlə, heyranlıqla baxan gözlərinə ani də olsa, nəzər yetirdi. Və yenə özü dillənməli oldu və: - Bəlkə Şeyx mənim salamımı gözləmirdi? - dedi.

- Dünyanın bütün gözəllərinin şahı məni heyrətdə qoyub. - Axır ki, dilləndi. Sonra da özündə cəsarət tapıb əlavə elədi: - Mən deyirəm günəş haradan doğub ki, şah qızı, gözəllər şahı üzünü mənə tərəf döndərib.

- Şeyx bizə çox iltifat göstərir.

- Hökmdar qızı bundan da çox iltifata layiqdi. Ancaq hökmdar qızı inciməsin. Mənim iltifatım bu qədərdir.

- Bəlkə hökmdar qızına bundan artıq iltifatı layiq bilmirsən, Şeyx?

- Elə deməyin, xanım. Mən hələ heyrətimdən özümə gələ bilməmişəm. Hələ inana bilmirəm ki, hansı cəsarətlə sənin hüzurunda belə danışıram.

- Bütün məmləkət Şeyxin cəsarətindən danışır ki...
- Aləmşah bəyim Şeyxi yenə süzüb, sözünün gerisini gətirdi. - Bəlkə Şeyx başını qaldıra.

- Günəşin hüzurunda gözlərim qamaşır, baxa bilmirəm.

- Biz günəş deyəndə elə Şeyxi düşünürük. Bəs o niyə belə?

Şeyx özündə cəsarət tapıb irəli gəldi. Heç özü də bilmədi ki, əllərini nə vaxt qabağa uzatdı. Elə bil ki, bir məhbus cinayətinə görə qollarına taxılası qandalları gözləyirdi. hərəkətlərini izləyir. Bu anda gözünü dolandırıb ətrafa nəzər yetirdi.

Uzun Həsən sarayın yuxarı eyvanından dayanıb aşağı baxırdı. O, əslində elə indicə çıxmışdı eyvana. Bəlkə də, onlar əllərini bir-birindən ayırmışdı Uzun Həsən baxanda. Hər halda Uzun Həsənin baxışlarında kəskin qəzəb duyulmurdu. Buna baxmayaraq, qız atasının baxışlarından həyalandı, dönüb getmək istədi. Ancaq Şeyx Heydər Uzun Həsənin onları müşahidə etməsini bilsə də, - çünki Uzun Həsən Şeyx Heydərin arxa tərəfində - hündürdə idi. Şeyx Heydər onu görə bilmirdi. - Əslində, qızın tələşından bunu duymuşdu. Geri çəkilmədi. Dilinin ucunda saxladığı, ürəyindən gələn səsi sözə çevirdi.

- Qəlbimin hökmdarı get, ancaq unutma, ürəyimi də aparırsan. Bu, mənim səndə əmanətimdir.

- Əgər əmanətdirsə, mən onu qoruyaram. Bir kimsənin bu əmənatə bəd nəzərinə yol verməram.

- İnandım şah qızı.

- Ancaq sən də unutma, Şeyx, bil ki, son nəfəsiməcən qəlbimin taxtının, tacının sahibi sənsən.

- Yaxşı yol şah qızı, gözlə məni, görək qəza-qədər nə gətirir?

- Tanrı sevənlərin tərəfindədir, Şeyx, bunu ki, sən yaxşı bilirsən.

- Bilirəm, şah qızı, ancaq onu da bilirəm ki, sevənlər öz səadətlərinə asanlıqla qovuşa bilmirlər.

- Allahdan nə gəlsə, gərək, bizə xoş olsun, mənim Şeyxim.

- Əlbəttə, böyük Allahın iradəsinə qarşı dura bilmərik. Son anda onun rəhminə və hökmdarın ədalətinə sığınarıq.

...Uzun Həsən hələ də eyvandan baxırdı. Qızının və bacısı oğlunun nə danışdığını bilməsə də, onların söhbətlərindən bir məhrəmlik, bir əzizlik duyurdu. Uzun Həsən hiss edirdi ki, bacısı oğlu da, qızı da könül söhbətlərinin ən xoş məqamlarını yaşayırlar.

Bəlkə də, oğlunun səsini eşitməsəydi, Aləmşah bəyim bu kədərqarışıq artıq keçmişdə qalmış xatirələri yaddaşında çox çözəcəkdi. O, hələ Şeyx Heydərlə görüşündən sonrakı hərbi səfərdən qayıdışı da təzədən yaşamaq istəyirdi. Amma yox, gənc oğlu İsmayılın - Səfəvi xənadanının böyük hökmdarının rəvan bir səslə sanki nəğmə kimi oxuduqlarına diqqət kəsildi. Şah İsmayıl deyirdi:

*Getmə sən, eşqin ki, bir gənci-nihan əldən gedər,*
*Bil ki, sən getsən yanımdan, təndə can əldən gedər.*

*Qayib oldu gül yüzün çeşmimdən, ey ruhi-rəvan,*
*Qorxaram ki, sünbüli-ənbərfəşan əldən gedər.*

*Candan oldum, ey pərivəş, möhnətindən tanriçün,*
*Qıl tərəhhüm ki, bu cismi-natəvan əldən gedər.*

*Ahim odundan kim, oldu yerü gög zirü zəbər,*
*Ehtiyat et ki, zəminü asiman əldən gedər.*

*Mən yaman etsəm necə sən yaxşılıq qıl, ey əziz,*
*Nəsnə qalmaz dünyədə, yaxşı-yaman əldən gedər.*

*Basmadan hər yerə kim, bir dəm qədəm tutmaz qərar,*
*Məskən eylə çün müşərrəfdir, məkan əldən gedər.*

*Bu Xətayi, ey sənəm, bir dəm camalın görməsə,*
*Taqət etməz də kim, ol ruhi-rəvan əldən gedər.*

Gənc şah çox rəvan səslə özü də inci-inci düzülmüş sözləri bədahətən varlığının səsi, nəğməsi kimi oxuyurdu. Aləmşah bəyim oğlunun poeziya vurğunu olduğunu bilirdi. Nizamini, Firdovsini oxuduğunu, Kişvəridən xəbərdar olduğunu bilirdi, Təbrizin məşhur şairlərindən də qəzəllər söylədiyindən xəbərdar idi. Ancaq oğlunun belə bədahətən rəvan qəzəl dediyini ilk dəfə eşidirdi. Bircə onu şeirin sonundakı təxəllüs çaşdırırdı.

***(Davamı var)***